Yəqin hamınız nə vaxtsa yuxunuz ərşə çəkiləndə sayrışan ulduzlara tamaşa edib heyrətlənmisiniz? Saysız-hesabsız işartılar göyün ənginliklərində bir-birinə göz vururmuş kimi yanıb-söndükcə elə bilmisiniz ki, əlçatmaz, ünyetməz ucalıqda və uzaqlıqdan Yer kürəsinə baxan hanşısa qeyri-adi, möcüzəli varlıqlarla üzbəüzsünüz. Göydən bir ulduzun düşdüyünü görəndə ürəyinizdə arzu da tutmusunuz. Lakin elmə məlumdur ki, ulduzun yerə enməsi, yaxud bir göz qırpımında yerini dəyişməsi mümkün deyil. Çünki kosmosdakı noxud və hətta xırda qum dənəciyi boyda nəzərə çarpan hər bir işartı bizim planetimizdən dəfələrlə böyükdür. Gecə göydə sürətlə uçan isə, sadəcə təyyarə, meteorit, ya da süni peykdir. Beləcə ulduzlar həmişə bəşər oglunu özünə cəlb edib. İnsan əsrlər boyu gözlərini sonsuz kainata dikib, oradan özü kimi ağıllı məxluqların gəlişini gözləyib. Və indi də çoxumuz başqa qalaktikalardan canlı varlıqların eyni şəkildə bizlərə tamaşa etdiklərinə inanırıq. Elm də sübut etməyə çalışır ki, saysız-hesabsız cöy cisimlərinin arasında insanların oxşarları məskunlaşıblar.

Doğrudur, artıq Adəm övladları Ayı fəht ediblər, ora ayaq basıblar, hazırda Mars planetinə səyahət etməyə hazırlaşırlar. Əfsuslar olsun ki, günəş sistemi planetlərindən kənara çıxmaq hələ gerçəklikdən uzaq səslənir. Bizim qalaktikaya ən yaxın olan göy cismi Qütb ulduzudur. Ora işıq sürəti ilə gedən kosmik gəmi göndərilsə 80 ilə çatar. Bu fantastik arzunun reallaşması isə, nə az, nə çox, 100 ildən sonra mümkün olacaq.

Və biz yenə də yerdən ulduzlara sirli bir varlıq kimi baxacağıq.

**// A Z Ə R B A Y C A N**

Bəs siz heç kosmosdan öz yurdunuza tamaşa etmək arzusuna düşmüsünüzmü? Bəzi kosmik turistlər milyonlar xərcləyirlər ki, kosmosdan bəşər oğlunun məskəninə - Yer planetininə baxa bilsinlər. Çünki bu görüntünün cazibəsi heç də ulduzlardan az deyil. Buyurun, heç bir vəsait sərf etmədən jurnalımız vasitəsi ilə doğma yurdumuz Azərbaycanın, gözəl şəhərimiz, paytaxtımız Bakının kosmosdan necə göründüyünə baxın.

Vaxtaşırı məmləkətimizin başqa ərazilərinin də göydən – kosmosdan çəkilmiş şəkillərini sizlərə təqdim edəcəyik.

// A B Ş E R

# yuxarı - GÖY
# aşağı - AZƏRBAYCAN




// A B Ş E R O N
// B A K I
// B A K I
Neftayırma zavodu
Respublika Stadionu
Liman



BAKI

## Azərbaycan

**Paytaxt:** Bakı

**Ərazisi:** 86,6 min km$^2$

**Əhalisi:** 8 milyon 265 min nəfər (2004)

**Pul vahidi:** MANAT

**Dili:** Azərbaycan - türk dili

**Saat qurşağı:** UTC+4

**Ən böyük şəhərləri:** Bakı, Gəncə, Sumqayıt, Şəki, Mingəcevir, Naxçıvan, Şamaxı, Lənkəran

**Qurtuluş günü:** 1993-ci il 15 iyun

Ramazan Qafarlı

# AZƏRBAYCAN

## DÜNYANI SƏYAHƏTƏ ÇAĞIRIR

**Azərbaycan Respublikası dünyanın ən füsunkar guşələrindən biridir. Avropa qitəsində yerləşir. Üç tərəfdən dağlarla (Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları), bir tərəfdən isə Yer kürəsinin ən böyük gölü - Xəzər dənizi ilə əhatə olunur. Azərbaycan qədim dövrlərdən Odlar Yurdu adlanıb. Təbiət bu diyardan öz səxavətini əsirgəməyib. Dünyanın on bir iqlim tipindən doqquzu bu ulu yurdda var. Elə ona görə də respublikanın florası və faunası öz rəngarəngliyi ilə seçilir. Azərbaycanın meşə, dağ və düzənliklərində 97 növ məməli heyvan, 346 növ quş, sularında 95 növ balıq məskən salıb. Xəzərdə nərə balıqlarının ən qiymətli növləri yaşayır. Burada nəsli tükənməkdə olan, adları Qırmızı kitaba salınmış nadir heyvan və bitki növləri çoxdur.**

**Azərbaycan bəşər mədəniyyətinin ilkin beşiklərindən biri sayılır. Ərazidə qədim insanların 1.5-2 milyon il bundan əvvəl məskunlaşması alimlər tərəfindən sübuta yetirilib. Mağara düşərgələrində aparılan arxeoloji qazıntılar daş dövrü insanlarının təşəkkülü və inkişafı, qədim ibtidai icmalar haqqında məlumat almağa imkan verir. Ta əsgi çağlardan bu günədək burada yaşayan insanların əksəriyyəti türk mənşəlidir və bütün bölgələrdə türk mədəniyyətinin izləri qalmaqdadır.**



Müsahibimiz Turizm İdarəsinin rəisi Aydın İsmiyevdir

**Azərbaycan turizmin inkişafı üçün çox əlverişli diyardır. Bu məqsədlə xüsusi dövlət proqramı hazırlanır. Mədəniyyət və Turizm Nazirliyinin Turizm İdarəsinin rəisi Aydın İsmiyevlə söhbətimiz respublikamızda turizmin inkişafı barədədir.**




Azərbaycan Respublikasının turizm emblemi

**Q** *Aydın müəllim, Azərbaycanda turizmin inkişafı hansı səviyyədədir?*

**Ai** Son illər Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən turizm sahəsində beynəlxalq əlaqələrin qurulması, inkişaf etdirilməsi, daxili turizmin inkişafı və respublikanın turizm imkanlarının təbliği sahəsində müəyyən tədbirlər həyata keçirilib. Prezidentin 30 yanvar 2006-cı il tarixli fərmanından sonra isə ölkəmizdə turizm sənayesinin inkişaf etdirilməsini yeni yaradılan Mədəniyyət və Turizm Nazirliyi yerinə yetirir. Respublikamızda turizmin inkişafını sübut edən amillərdən biri də 2006-cı ilin sentyabr ayında İslam Konfransı Təşkilatına üzv dövlətlərin turizm nazirlərinin V konfransının Bakı şəhərində keçirilməsinin qərara alınmasıdır.

**Q** *Ümumiyyətlə, beynəlxalq aləmdə necə təmsil olunursunuz?*

**Ai** Nazirlik turizm sahəsində beynəlxalq əlaqələrin yaradılıb genişləndirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan Respublikası hökuməti ilə l6 ölkə - Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Bolqarıstan, Belarus, Yunanıstan, Qazağıstan, Qatar, Maldova və Ruminiya hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanıb. Bundan əlavə, Böyük Britaniya, Misir, Rusiya Federasiyası, Avstriya, Küveyt, Bəhreyn, Macarıstan, İsveçrə, Yaponiya, Koreya, İran, İsrail ilə də əməkdaşlıq haqqında saziş layihələri hazırlanaraq baxılması üçün sözü gedən ölkələrin dövlət qurumlarına təqdim olunub. Azərbaycan artıq bir sıra beynəlxalq və regional təşkilatlarla, o cümlədən Ümumdünya Turizm ►



Qobustan petroqliftləri - açıq səma altında muzeydir. Petroqliftlər, yəni qayaüstü rəsmlər Yer planetində insanın təkamülünün bədii "arxividir". Bu cür arxivlərin "sənədləri" isə insanın öz mənliyini ətraf aləmə ilk dəfə translyasiya etməsinə bənzəyir. Azərbaycanda açıq səma altında bir neçə bu cür "arxiv" var.



Bakıdakı atəşpərəstlər məbədi - atəşgah (Od evi) paytaxt qonaqlarının böyük marağına səbəb olur. Suraxanı qəsəbəsində yerləşən Atəşgah (XVII əsr) qaya üzərində yerləşir. Burada minilliklər boyu yerdən təbii şəkildə çıxan qaz yanmışdır.

Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, İslam Konfransı Təşkilatı və MDB üzv dövlətlərinin Turizm Şurası ilə turizm sahəsində əməkdaşlıq edir. Son illər xarici ölkələrlə turist mübadiləsinin genişləndirilməsi, respublikamızda turizm şirkətlərinin və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi, Azərbaycanın dünya turizm bazarına inteqrasiyası aparılan ardıcıl siyasətin nəticəsidir.

**Q** *Yerli iş adamları turizm sənayesinə maraq göstərirlərmi?*

**Ai** Sahibkarlığın inkişafına yönəldilən tədbirlər digər sahələrlə yanaşı turizm sektorunda çalışan iş adamlarına da stimul yaradır, nəticədə Bakı şəhərində, digər regionlarda bir-birinin ardınca mehmanxanalar, turist istirahət mərkəzləri tikilir. Təkcə 2001-2005-ci illər ərzində 112 yeni mehmanxana və mehmanxana tipli turizm obyekti istifadəyə verilib. Bunlardan 42-si son iki ildə fəaliyyətə başlayıb. Faktlar göstərir ki, iş adamlarının (xarici və yerli) respublikamı-

zın turizm infrastrukturunun inkişaf etdirilməsinə maraqları xeyli artmışdır. Təsadüfi deyildir ki, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ilk dəfə olaraq Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyinin dəstəyi ilə Əbu-Dabi Ticarət və Sənaye Palatasında "Azərbaycanda Turizm İmkanları" mövzusunda Biznes Forum keçirilib. Bu forumda turoperatorlarla yanaşı turizm sahəsində çalışan iş adamlarından ibarət 19 nəfər nümayəndə heyəti də iştirak edib, turizmlə bağlı layihələr Əbu-Dabi, Ras-Al Xaym əmirliklərində investorlara təqdim olunub. Beləcə respublikamızın turizminin inkişafının nəticəsi olaraq statistik məlumatlar genişlənir. Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, əgər turizm fəaliyyətindən dövlət büdcəsinə daxil olan vəsait 2002-ci ildə 51,0 milyon ABŞ dolları məbləğində təşkil edirdisə, bu məbləğ 2005-ci ildə 77,7 milyon ABŞ dolları təşkil etmişdir. Həmçinin, turistlərin sayı 2002-ci ildə 428 min 397 olduğu halda, 2005-ci ildə 865 min 255 nəfər təşkil etmişdir. Bundan əlavə, 2001-ci ildə Respublikada fəaliyyət göstərən turizm şirkətlərinin sayı 18 idisə, bu gün onların sayı 195-ə çatmışdır. Qeyd etmək istərdim ki, ÜTT-nın göstəricilərinə əsasən, MDB ölkələri arasında Pribaltika ölkələri ▶



Şəki-Zaqatala bölgəsində oğuzların gözətçi qalası



Xəzərdə qağayıların balıq ovu





Qız qalası VII əsrə aid edilir. Alimlərin fikrincə, bu qala hərbi və müdafiə təyinatlı olmuşdur və Azərbaycanın şimal sərhədlərindən - Dərbənd qalasından başlanan bütöv bir hərb - müdafiə tikililəri kompleksinin bir hissəsidir.




Müasir Azərbaycan dövlətinin qurucusu H.Əliyevin Fəxri xiyabandakı məzarı xalqın ziyarətgah yeridir.




## TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ

Heydər Əliyev adına İdman-Konsert Kompleksində aprelin 20-22-si günlərində V turizm və səyahətlər sərgisi açılıb. Sərgidə 10 ölkədən 42 şirkət təmsil olunub. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilk dəfədir ki, sərgidə Azərbaycanda ekoloji turizmin imkanlarını, qoruqlarımızı əks etdirən ekspozisiya ilə iştirak edib. Qonaqlar Mədəniyyət və Turizm Nazirliyi pavilyonunda xalq sənəti nümunələri, turizm soraq kitabçaları ilə tanış olub. Sərginin təşkilatçıları qonaqların diqqətini Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə cəlb etmişlər. "Krea" reklam agentliyi Qarabağ torpağı guşəsi yaratmışdır. Burada Azərbaycan muğamları səsləndirilib, qədim diyarımızın tarixi, təbiəti və mədəniyyəti barədə informasiya verilib.

Sərginin açılış mərasimində Mədəniyyət və Turizm Nazirliyinin, "Azərbaycan Hava Yolları" Dövlət Konserninin, Ticarət və Sənaye Palatasının nümayəndələri iştirak etmişlər.






istisna olmaqla xarici turist axınına görə Azərbaycan Rusiya, Ukrayna və Qazağıstandan sonra dördüncü yerdədir.

**Q** *Ölkəmizdə xarici turistlərə necə xidmət göstərilir?*

**Aİ** Mehmanxanaların xidmət səviyyəsinin öyrənilməsi, beynəlxalq standartlara uyğun qiymətləndirilməsi məqsədi daşıyan tədbirlər görülür. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə «Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması»nın keçirilməsi Qaydaları təsdiq edilib. Bu qaydalara əsasən nazirlik tərəfindən ölkəmizdə fəaliyyət göstərən mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin təsnifatı aparılıb. Bu günə qədər Bakı şəhərində 22, digər şəhər və rayonlarda isə 11 mehmanxana təsnifatdan keçib, göstərdikləri xidmətlərə uyğun dərəcələrə layiq görülüblər.

Məlumat üçün onu da deyim ki, Gənclər, İdman və Turizm Nazirliyi yarandığı gündən etibarən respublikamızın turizm potensialının təbliğ etdirilməsi məqsədi ilə beynəlxalq turizm sərgilərində ölkəmizin turizm imkanları əks etdirmişdir. Hazırda iştirak etdiyimiz sərgilərin sayı artır, coğrafiyası daha da genişlənir.

**Q** *İndiyədək turizm sahəsində hansı layihələr həyata keçirilib?*

**Aİ** Gənclər, İdman və Turizm Nazirliyinin BMT İP ilə birgə layihəsinə əsasən respublikamızda Turizm İnformasiya Mərkəzləri yaradılır. Artıq Bakı, Xaçmaz, Şamaxı və Şəkidə Turizm İnformasiya Mərkəzləri fəaliyyətə başlayıb. Bundan əlavə, ABŞ Ticarət və İnkişaf Agentliyinin qrantı hesabına Azərbaycan turizminin strateji inkisaf planı hazırlanıb, təqdimat mərasimi cari ilin mart ayının 17-də keçirilib. Həmin sənəd də Azərbaycan Respublikasında turizmin İnkişafına dair Dövlət Proqramı (2007-2016) hazırlananda nəzərə alınacaq.

**Q** *Aydın müəllim, ölkəmizdə turizmin hansı növlərindən istifadə olunur?*

**Aİ** Hazırda müxtəlif turizm növlərinin inkişaf etdirilməsi sahəsində işlər görülür. Hətta respublikamız üçün yeni olan dağ-xizək turizm növünün inkişaf etdirilməsi məqsədi ilə ölkəmizə Fransadan mütəxəssislər dəvət olunmuşdur. Onlar Qusar, Şamaxı rayonlarında xizək stansiyasının layihəsi üzərində işlər aparırlar. Bundan əlavə, Azərbaycanda ekoturizm, kənd-yaşıl turizmi və mədəni turizm növləri də inkişaf etdirilir. Azərbaycanda mövcud maliyyə institutlarının qrant proqramları çərçivəsində turizm təşkilatları tərəfindən mədəni turizm marşrutları ("Arnova" turu, etnoqrafiq tur, Aleksandr Düma turu və s.) hazırlanmışdır.

**Q** *Hansı problemlərlə üzləşirsiniz?*

**Aİ** Turizm infrastrukturunun inkişafı sahəsində atdığımız bir çox uğurlu addımlara baxmayaraq, bu sahədə problemlər də qarşıya çıxır. İşimizi çətinləşdirən məsələlərdən biri turizm obyektlərində xidmət səviyyəsinin aşağı olmasıdır. Bu istiqamətdə, Nazirlik tərəfindən masa xidmətçisi, turizm menecmenti və turizm şirkətlərində mütəxəssis mövzularında treyninq kursları təşkil edirik. Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyindən dəvət olunan mütəxəssislər xidmət mədəniyyəti mövzusunda kursları davam etdirir. Cari ilin may ayında da 10 günlük yeni kursların keçirilməsi nəzərdə tutulur. İnanırıq ki, görülən tədbirlər turizm xidmət səviyyəsinin artmasında böyük əhəmiyyət kəsb edəcəkdir. ■

INTR@NS

**Ünvan:**
Bakı, Nizami küç. 70

**Telefonlar :**
*Maliyyə məsələləri ilə əlaqədar* - (994-12) 498-05-22 | 498-99-68
*Texniki məsələlərlə əlaqədar* - (994-12) 493-93-19

**E-mail:**
*Texniki məsələlər* - support@intrans.baku.az | support@online.az
*Maliyyə məsələləri* - finance@intrans.baku.az




**Sizin telefon xəttində optik lifləri**

INTR@NS sizə İnternetə bağlanmaq üçün ən qabaqçıl ADSL texnologiyasını təqdim edir.
ADSL *(Asymmetric Digital Subscriber Line)* – standart telefon xəttlərində ən yeni və sürətli həlldir.
Bu texnologiyanın istifadəsi adi telefon xəttlərində optik liflərinin sürət və keyfiyyətini istifadəçilərə hiss etdirir.

**INTR@NS-dan ADSL:**

- Bu, internetə yuksək surətlə bağlantıdır *(64 kbit\s-dən 8 Mbit\s qədər)*
- Hər zaman telefon xəttinizin boş qalmasıdır *(eyni vaxtda İnternet və telefon istifadə etmək imkanı)*
- Telefon bağlantısının olmamasıdır *(gun ərzində daimi online bağlantısı)*
- Münasib qiymətdir *(surət və keyfiyyət, pulun və vaxtın qənaəti)*

**INTR@NS-dan ADSL – lə bağlanmaq üçün nə etməlisiz?**

Sadəcə 498-05-22 nömrəsinə zəng etməyiniz kifayətdir.

**Bu ATS-lərdə xidmət göstərilir:**

438, 439, 403, 465, 436, 490, 496, 493, 498, 494, 495, 484, 440, 441, 449, 499, 598, 466, 467, 70, 74, 75, 76